**UOT:94(479.24).**

# 1918-1920-CI İLLƏRDƏ AZƏRBAYCANLA-GÜRCÜSTAN ARASINDA İQTİSADİ ƏLAQƏLƏR

***Kazımov Bəhman Qafar oğlu***
***Gəncə Dövlət Universiteti***
***Kazimov-bahman@mail.ru***

**Xülasə:** *Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra hökümətin qarşısında çox mühüm problemlərin həlli dururdu. Birinci növbədə qonşu ölkələrlə o cümlədən, Gürcüstanla kəsilmiş iqtisadi əlaqələri bərpa etmək lazım idi.Böhranlı vəziyyətdən çıxmaq üçün təxirə salınmaz tədbirlər həyata keçirildi. Qısa müddət ərzində əhalinin ərzaqla təmin edilməsi üçün neft barteri baş tutdu.*

**Açar sözlər:** Azərbaycan, Gürcüstan, neft, dəmiryolu, tranzit
**Ключевые слова:**Азербайджан, Грузия, нефть, железная дорога, транзит
**Keywords:** Azerbaijan, Georgia, oil, railway, transit

Azərbaycan dövlətçiliyinin təşəkkül tapması iqtisadiyyatın da tamamilə yenidən qurulmasını tələb edirdi. Lakin I Dünya müharibəsi dövründə Cənubi Qafqazda, eləcə də Azərbaycanda baş alıb gedən anarxiya, hərc-mərcilik, xalqın varidatının Bakı kommunaları ilə «Sentrokaspi» tərəfindən talan edilməsi və nəhayət müstəqil dövlət quruculuğu dövründə ölkənin xarici qoşunların təsiri altında olması nəticəsində iqtisadiyyatın dağılması gənc hökuməti böyük çətinliklələrlə qarşılaşdırmışdı. Hökumətin iqtisadiyyat sahəsində əsas vəzifəsi yalnız dağılmış təsərrüfat sahələrini bütünlüklə bərpa etmək deyil, həm də yeni iqtisadi sistemin prinsiplərini müəyyənləşdirmək və həmin prinsiplər əsasında islahatlara başlamaq idi.

1920-ci ilin martında «Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Cümhuriyyəti əhalisinin torpaqla təmin olunması haqqında qanun»un yeni layihəsi Gürcüstan sosial-demokrat hökumətinin Azərbaycan sosial-demokratiyası tərəfindən bəyənilən aqrar qanun əsasında hazırlanmışdı[1, səh.445].

Bu fakt onu bir daha təsdiq edir ki, digər sahələrdə olduğu kimi iqtisadi sahədə də Azərbaycanla Gürcüstan hökumətləri yekdil siyasət yürüdürdülər. Bundan başqa hər iki respublika xalqların ənənəvi tarixi iqtisadi əlaqələrinin fonunda iqtisadi əlaqələri və əməkdaşlığı qururdular.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi tədbirləri sırasında ən əhəmiyyətlisindən biri də qonşu və xarici dövlətlərlə iqtisadi əlaqə yaratmaqdan ibarət idi. Bu sahədə AXC hökuməti təkcə qanun layihələri hazırlamaqla kifayətlənməyib, dünyanın bir çox ölkələri, o cümlədən 1918-ci il iyunun 4-də Türkiyə, 1919-cu il mayın 23-də İran, İngiltərə, ABŞ, Fransa, İtalya, Gürcüstan, Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqə yaratmağa nail olmuşdu. Bəzi dövlətlərlə ticarət müqaviləsi bağlanmış, bəziləri ilə isə şifahi razılıq əldə edilmişdi[2, səh.468].

Hökumət və parlament iqtisadiyyatdakı ağır vəziyyətdən əsas çıxış yollarından birini qonşu ölkələrlə ilk növbədə istehsal olunan neftin əsas hissəsinin daxil olduğu sovet Rusiyası ilə xarici ticarət əlaqələrini yaxşılaşdırmaqda görürdü. Bu ölkələrlə əlaqələrin pozulması ona gətirib çıxarmışdı ki, Bakının ambarlarında çoxmilyonlarla ton strateji xammal yığılıb qalmışdı[3, səh.232].

Neft Azərbaycanın ixracatının əsas mənbəyi olduğundan hökumət onun müxtəlif istiqamətlərdə ixracını bərpa etməyə çalışdı. Məlum səbəblərə görə, Rusiya bazarı

Cümhuriyyət üçün itirildiyindən bütün diqqəti Azərbaycanı dünya bazarı ilə birləşdirən Bakı-Batum neft kəmərinin işini bərpa etməyə yönəltmək lazım idi. Neft kəmərinin taleyi çox mürəkkəb idi. Onun tikintisində hələ XIX əsrin sonlarında, 1897-ci ildə başlanmış, 1907-ci ilin iyununda isə başa çatmışdır. Neft kəmərinin ümumi uzunluğu 830 km idi və onun marşrutu Zaqfqaziya dəmiryolu boyunca keçirdi.

Sonralar 1917-ci il iyunun 1-də ağ neft kəməri qara neft ötürən kəmərə çevrildi. Azərbaycanın müstəqilliyi elan olunduğu məqamda neft kəməri işləmirdi. Bakı-Batum marşrutu ilə neft ötürülməsi yalnız 1918-ci il dekabrın 12 də bərpa olundu. Bunun ardınca, 1918-ci il dekabrın 26-da Azərbaycanla-Gürcüstan arasında «Azərbaycan dəmiryolunun Zəyəm stansiyasından Gürcüstan dəmiryolunun Saloğlu stansiyasınadək neft ötürülməsinin müvəqqəti qaydaları» haqqında tranzit müqaviləsi bağlandı[4, səh.236].

Neft sənayeçiləri ittifaqı yanında neft kəmərinin ehtiyacı üçün firmalar arasında neftin pay bölgüsü siyahısını müəyyən edən xüsusi Şura mövcud idi. Neft sənayesi işlərinin bərpa olunduğu dövrdə Azərbaycanda Bakıda, Biləcəridə, Hacıqabulda, Yevlaxda, Dalmalıoğluda, Gəncədə, Şamaxıda və Ağstafada 25 ambar var idi. Neftin əsas ötürülməsi Bakı-Batum kəməri ilə həyata keçirilirdi. Neft kəmərinin işlədiyi müddət ərzində Azərbaycan Gürcüstana küllü miqdarda neft göndərmişdi.

Gürcüstanla Azərbaycan arasında tranzit müqavilənin imzalanmasının hər iki dövlətin həyatında həm siyasi, həm də böyük iqtisadi əhmiyyəti var idi. Neftlə zəngin Azərbaycan üçün birinci növbədə əhalinin ilkin zəruri ərzaq məhsulları və kağız pula tələbatını təmin etmək lazım idi. Buna görə də hökumət nefti ərzağa dəyişməyi qərara aldı. Azərbaycan Gürcüstandan neftin əvəzində puldan başqa odun kömürü, lobya, kələm, şəkər, habelə avtomobil şinləri alırdı. Gürcüstanın Azərbaycanı kifayət qədər şəkər və taxılla təmin edə bilməməsindən Azərbaycan hökuməti uzaq Ukraynaya müraciət etməli olmuşdur və bu dəfə də Gürcüstanın ərazisindən Qara dənizədək tranzit kimi istifadə olunmuşdur.

Azərbaycanın xarici ölkələrlə iqtisadi və ticarət əlaqələrinin genişlənməsinin zəruriliyi haqqında məhşur milyonçu N.Z.Tağıyevin də fikirləri maraqlıdır. H.Z.Tağıyev baş nazir N.Yusifbəyliyə yazdığı müraciətində dövlətin maliyyə və sənaye-ticarət sahəsindəki siyasətində qəti dönüş yaratmağı təkid etmişdi[5].

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bütün digər sahələrdə olduğu kimi iqtisadiyyat sahəsində Gürcüstan ilə qurduğu əlaqələr də sıx əməkdaşlıq çərçivsində mövcud olmuşdur. Ümumiyyətlə, Azərbaycan-Gürcüstan nümayəndələri bəhs etdiyimiz dövürdə yetərincə formalaşmış, inkişaf xəttinə düşmüşdür.

Azərbaycanla Gürcüstan iqtisadi əlaqələrini təhlil etdikdə açıq şəkildə görünür ki, hər iki ölkənin maraqları bir-birini tamamlayırdı və bu ölkələr hər biri ayrı-ayrılıqda iqtisadi inkişafını əlaqəsiz düşünmürdülər.

### *Ədəbiyyat*


1. «Azərbaycan tarixi» /7 cilddə/ V cild. B. 2001. səh – 445.
2. «Azərbaycan tarixi» /7 cilddə/. V. cild. B. 2001. səh – 468.
3. «Azərbaycan Cümhuriyyəti. /1918 – 1920/. B. 1998. səh – 232.
4. «Azərbaycan Cümhuiyyəti» /1918 – 1920/. B. 1998. səh – 236.
5. «Vışka» qəzeti. 30 sentyabr. 1990.

## ЭКОНОМИЧЕСКИЕ ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ГРУЗИЕЙ В 1918-1920 ГГ

***Казымов Бахман Гафар***

***Резюме***

После создания Азербайджанской Демократической Республики перед правительством встали очень важные проблемы. В первую очередь необходимо было восстановить разорванные экономические связи с соседними странами, в том числе с Грузией, были приняты незамедлительные меры по выходу из кризиса. В короткие сроки состоялся бартер нефти для обеспечения населения продовольствием.

## ECONOMIC RELATIONS BETWEEN AZERBAIJAN AND GEORGIA IN 1918-1920

***Kazimov Bahman Gafar***

***Summary***

After the establishment of the Azerbaijan Democratic Republic, the government faced the solution of very important problems. First of all, it was necessary to restore economic ties with neighboring countries, including Georgia. Immediate measures were taken to overcome the crisis. In a short time, an oil barter took place to provide the population with food.

***Rəyçi: dos. İlyasova Xatirə***
***Ümumi tarix kafedrasının 12 oktyabr 2022-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxilm olduğu tarix 21 oktyabr 2022-ci il***